**Kərə yağları ilə bağlı keçirilmiş nəzarət tədbirinə dair məlumat**

**(3 aprel 2025)**

Qida Təhlükəsizliyi Agentliyinin əməkdaşları tərəfindən həyata keçirilən nəzarət tədbirləri çərçivəsində fiziki şəxs Cəfərov Əli Telman oğlunun istehsal etdiyi kərə yağlarından götürülmüş nümunələrin müayinəsi nəticəsində məhsul partiyalarında bitki sterinləri (Kampesterin, Stiqmasterin, Beta-sitosterin), eyni zamanda normativ sənədlə bu növ məhsulun tərkibində istifadəsinə icazə verilməyən qida əlavələri (Sorbin və Benzoy turşuları) aşkarlanıb.
Faktla bağlı Agentlik tərəfindən sözügedən məhsul partiyalarının dövriyyədən çıxarılması və ticarət şəbəkələrindən geri çağırılması barədə məhdudlaşdırıcı qərar qəbul edilərək qanunvericiliyə uyğun zəruri tədbirlər görülüb.
Uyğunsuzluq aşkarlanan məhsul partiyaları aşağıdakılardır:

| **№** | **Məhsulun adı** | **Məhsulun istehsal və son istifadə tarixləri** | **Aşkarlanan uyğunsuzluq** |
|---|---|---|---|
| 1. | "Westfood" əmtəə nişanlı 82.5% yağlılıqda qaymaqdan təbii kərə yağı | 07.02.2025-07.02.2026 | Kampesterin, Stiqmasterin, Beta-sitosterin, Sorbin (E200) turşusu, Benzoy (E210) turşusu |
| 2. | "Beloruskiy Kray" əmtəə nişanlı 82.5% yağlılıqda təbii kərə yağı | 05.03.2025-05.03.2026 | Kampesterin, Beta-sitosterin |